Əliyev İmran. Kobra ləqəbli artilleriya cəngavəri // Xalq qəzeti. - 2022. - 15 noyabr. - № 248. - S. 8.

Kim bilir, bəlkə də bu sözləri deyəndə həmin qəhrəmanlardan bəzilərinin surəti onun gözünün önünə gəldi... Həmin gün redaksiyamızın akt zalında olan hər kəs bu cümlənin sehrinə qapılıb, xəyalında müxtəlif döyüş səhnələri canlandırdı. Bizim canlandırmağa çalışdığımız belə döyüş səhnələrinin həqiqi şahidlərindən biri də şəhid polkovnik-leytenant Xeyrulla İbrahimovdur. Onun həyatı və döyüş yolu ilə bağlı eşidəndə yuxarıda qeyd etdiyim cümləni və həmin səhnəni bir daha xatırladım. Bu, həmin Xeyrulla İbrahimovdur ki, ümummilli lider Heydər Əliyev ona "Sən gələcəyin Əliağa Şıxlinskisisən" demiş və "Hərbi xidmətdə fərqlənməyə görə" medalını şəxsən təqdim etmişdi.
Xeyrulla 1971-ci il aprelin 19-da Bakıda anadan olub. 1985-1988-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. Liseyi fərqlənmə diplomu ilə bitirən Xeyrulla Xmelnitski Ali Artilleriya Komandanlıq Məktəbinə daxil olub və "artilleriya" üzrə ixtisaslaşıb.
Xeyrulla İbrahimov Birinci Qarabağ müharibəsinin də iştirakçısı olub. O, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib, 1994-cü ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində qəlpə yaraları alıb. O vaxt ermənilər Xeyrullanın başına pul qoymuş, lakin istəklərinə nail ola bilməmişdilər. Anası deyir ki, Birinci Qarabağ müharibəsindən sonra oğlunu "gülləkeçirməz" zənn edirdi.
"Kobra" ləqəbli "artilleriya canavarı" 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun genişmiqyaslı təxribatına cavab olaraq cəbhəboyu zonada əks-hücum əməliyyatlarına könüllü olaraq getmək üçün Müdafiə Nazirliyinə müraciət edib. Nazirlik ehtiyatda olan polkovnik-leytenantın müraciətini dəyərləndirib və Xeyrulla İbrahimov 4-cü Ordu Korpusunun artilleriya rəisi kimi döyüşə yollanıb.
İkinci Qarabağ müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Düşmənin çoxsaylı canlı qüvvəsinin və dayaq məntəqələrinin məhv edilməsində fərqlənib. İllər əvvəl olduğu kimi, ermənilər "Kobra"nın öldürülməsi qarşılığında böyük məbləğdə pul təyin ediblər. Oktyabrın 26-da Xocavənd uğrunda gedən döyüşlər zamanı şəhid olan Xeyrulla İbrahimovun ölümündən sonra erməni saytlarında, xəbər agentliklərində "Kobra" öldü" başlıqları ilə müxtəlif məqalələr dərc olunmuş, bu hadisə xüsusi qeyd edilmişdir.
Yarım əsrlik ömrünün böyük bir hissəsini Azərbaycan Ordusunda xidmət etmiş, öz istəyi ilə seçdiyi bu həyat yolunda ləyaqətlə addımlamışdır. Onun xidmətləri Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. Şəhid polkovnik-leytenant Xeyrulla İbrahimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad

olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.
"Kobra" II Fəxri xiyabanda dəfn olunmuşdur. Allah rəhmət eləsin!